Azərbaycan Respublikasının Vəkillər
Kollegiyasının sədri
Cənab Anar Bağırova

Mingəçevir şəhəri H. Əliyev prospekti 80/25
Mənzil 40 da yaşayan, Vətən Müharibə-
si iştirakçısı Quliyev Ramiz Natiq oğlu
Tərəfindən

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1455
«07» 06 2021

# Təşəkkür Məktubu

Hörmətli Anar müəllim
Bu ərizəmi tam səmimi olaraq, öz qəlbimin səsi ilə yazıram
Bildirirəmki, mən Mingəçevir şəhərində fəaliyyət göstərən "Azan Oil"
adlanan yanacaq doldurma məntəqəsində yanacaq dolduran
işləyərkən, məntəqənin rəhbər şəxslərinin mənə qarşı etdikləri haqsız-
lıqların ucbatından, heç bir günahım olmadan məndən gəlir əldə etmək
və yanacaq doldurma məntəqəsində özlərinin günahı ucbatından
yaranmış mənim üzərimə qoymaq və məni məhkum etdirmək
məqsədi ilə, Mingəçevir şəhər Polis şöbəsinə əsassız şikayət
etmişdilər. İlkin araşdırma zamanı mən adım ləkələnməsin
deyə yanacaq doldurma məntəqəsinin rəhbərliyinin dedikləri
3000 manata qədər pulu onlara ödədim. Mən güman etdim
ki, bununla onlar məndən əl çəkəcəklər. Lakin, bundan sonra-
lənən yanacaq doldurma məntəqəsinin rəhbərliyi. Mən 44 günlük
Vətən müharibəsində olan zaman yenidən əsassız tələb edərək
Mingəçevir şəhər Polis şöbəsinin istintaq orqanında mənim barəmdə
AR.CM-nin 177.2.4-cü maddəsi ilə cinayət işi açılmasına və istintaq
aparılmasına nail olmuşlar. Cinayət işi materialları Mingəçevir şəhər
Məhkəməsinə göndərilmişdir. Mingəçevir şəhər Məhkəməsində
Maddi imkanım olmadığı üçün mənə məhkəmədə dövlət tərəfindən
05.02.2021ci il tarixdə müdafiəçi təyin olunmuş Mingəçevir
şəhər Vəkil Bürosunun Vəkili Adil Abışovun mənə
göstərdiyi hüquqi yardım səbəbindən və onun öz peşəsini
layiqincə yerinə yetirməsinə görə uzun müddət davam
edən Məhkəmə prosesləri zamanı mənim günahsız olduğumu
Məhkəmədə sübut etdi. Və mənim təqsirsiz olduğumu

Məhkəmədələtəsdiq edərəək. Mingəçevir şəhər Məhkəməsində 17 May 2021ci il tarixdə mənim barəmdə Bəraət Hökmü çıxarılmasına nail oldu.

Hörmətli Anar müəllim,

Mən sizin rəhbərliyiniz altında bu gün fəaliyyət göstərən AR. vəkillər kollegiyasının üzvü vəkil adını uca tutan və öz peşəsini sevən vəkil-Adil ABIŞOVA minnətdarlığımı bildirərək, ona öz peşə fəaliyyətində uğurlar arzu edirəm. Nə yaxşı ki. Adil ABIŞOV kimi vəkillərimiz var və mənim təqsirsiz olduğumu sübuta yetirdi.

Çox sağolun. işlərinizdə uğurlar arzu edirəm

Hörmətlə.

44 günlük Vətən Müharibəsi iştirakçısı

İMZA:

Quliyev Ramiz Natiq oğlu